# "Azərbaycan neft təsərrüfatı" jurnalının kollektivinə



**Əziz həmkarlar!**

Sizi "Azərbaycan neft təsərrüfatı" jurnalının 120-ci ildönümü münasibəti ilə təbrik edir, hamınıza yeni-yeni nailiyyətlər arzulayıram.

Ölkəmizin neft sənayesi bu gün də 120 il əvvəl olduğu kimi, böyük yüksəliş dövrünü yaşayır. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanmış yeni neft strategiyasının uğurlu icrası çərçivəsində həyata keçirilən regional və qlobal əhəmiyyətli layihələr bu yüksəlişin əsasını təşkil edir. Ulu öndərin ölkəmizi inkişaf və tərəqqiyə aparan qalibiyyətli strategiyası Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyevin rəhbərliyi altında ilbəil yeni nailiyyətlər qazanır. Enerji strategiyamızın uğurları ilk növbədə zəngin tarixə malik Azərbaycan neft-qaz sənayesində müasir texnologiyaların, üsul və metodların işlənilməsi, təbliği və yayılması ilə bağlıdır. Sizin gərgin zəhmətinizin bəhrəsi olan jurnalın məhz bu istiqamətdə fəaliyyəti təqdirəlayiqdir.

Bu gün Azərbaycan, rus və ingilis dillərində nəşr edilən, sahənin ən qocaman mətbu orqanı olan "Azərbaycan neft təsərrüfatı" jurnalı ölkəmizdə və onun hüdudlarından kənarda yüksək səviyyəli elmi informasiya mənbəyi kimi yaxşı tanınır və qəbul olunur. Fəaliyyəti dövründə neft-qaz sənayesinin aktual məsələlərinə dair yüzlərlə elmi-metodiki materiallar dərc etmiş jurnal neftçi-mütəxəssislər arasında innovativ elmi təcrübənin yayılması baxımından bir ensiklopedik mənbə kimi əhəmiyyətli rol oynayır. "Azərbaycan neft təsərrüfatı" jurnalı bütün Xəzər regionu ölkələri üçün özünəməxsus bir məktəbə çevrilmiş, yüksəkixtisaslı alimlərin yetişməsinə böyük töhfə vermişdir.

İnanıram ki, ötən 120 ildə formalaşmış ənənələr bundan sonra da jurnalın yaradıcı kollektivi tərəfindən davam etdiriləcək, elmi-praktiki missiya daşıyan "Azərbaycan neft təsərrüfatı" jurnalının səhifələrində neft-qaz sektorunun aktual problemləri parlaq şəkildə işıqlandırılacaq, yüksək elmi səviyyəsi ilə seçilən məqalələrin sayı və sanbalı daha da artacaqdır.

Bu əlamətdar gündə redaksiyanın bütün əməkdaşlarını bir daha çoxminli neftçilər ailəsi adından və şəxsən öz adımdan təbrik edir, onların hər birinə uzun ömür, cansağlığı və ən əsası, yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıram.

**Hörmətlə,**
**SOCAR-ın prezidenti**
**Rövnəq Abdullayev**